# "AZƏRBAYCAN KREDİT BANKI" ASC-də İŞƏ QƏBUL QAYDALARI-nan çıxarış

## 3. Vakant yerə namizədin axtarılması və onlardan sənədlərin qəbulu

3.1. Kadrlar şöbəsi namizədləri aşağıdakı mənbələrdən müəyyən edir:
3.1.1. Bankın kadr ehtiyatı;
3.1.2. Bankın veb səhifəsində elan;
3.1.3. Müvafiq işə düzəltmə agentlikləri;
3.1.4. Qəzetdə elan;
3.1.5. Bankın işçilərinin təqdimatları;
3.1.6. Ölkənin nüfuzlu Ali təhsil ocaqlarının müvafiq kafedraları;
3.2. Namizədlər Banka öz Tərcümeyi halını təqdim edirlər.
3.3.Müraciət edən Tərcümeyi halda göstərilən məlumatların doğruluğu bildirilir. Namizəd özü və yaxın qohumları barədə bilərəkdən təhrif olunmuş məlumatlar verdikdə müsabiqəyə buraxılması barədə ərizəsi rədd olunur.
3.4. Tərcümeyi-halların uçotuna , saxlanmasına və təhlilinə (araşdırılmasına) Bankın kadrlar şöbəsi məsuldur.
3.5. Qəbul edilmiş Tərcümeyi-hala müvafiq kurator namizədin müsabiqəyə buraxılması üçün rəy verir.
3.6. Rəy İdarə Heyətinin sədri tərəfindən təsdiq edildikdən sonra namizəddən müsabiqəyə buraxılmaq üçün ərizə alınır.
3.7. Tərcümeyi-hala müsbət rəy verilməsə bu barədə namizədə məlumat verilir.

## 4. Müsabiqənin keçirilməsi

4.1. Banka işə qəbul olunmaq istəyən hər bir namizədin hazırlığını, bilik səviyyəsini, ümumi dünyagörüşünü və iddialı olduğu vəzifəyə layiqli olmasını müəyyən edilməsi məqsədilə şəffaflıq şəraitində müsabiqə keçirilir. Müsabiqə test imtahanından və müsahibədən ibarətdir.
4.2. Müsabiqənin keçirilməsi üçün İdarə Heyəti sədrinin əmrinə əsasən Bankın işçilərindən ibarət daimi fəaliyyət göstərən Müsabiqə Komissiyası yaradılır.
4.3. Müsabiqə komissiyasının sədri və üzvləri İdarə Heyətinin sədri tərəfindən seçilir.
4.4. Müsabiqə Komissiyanın sədri və üzvləri İdarə heyətinin sədri tərəfindən dəyişdirilə bilər.
4.5. Komissiya, üzvlərindən üçdə iki hissəsi iştirak etdikdə səlahiyyətli sayılır. Baxılan məsələlər üzrə qərarlar açıq səsvermə və sadə səs çoxluğu ilə qəbul edilir. Qəbul edilmiş qərar iclasda iştirak edən bütün üzvlər tərəfindən imzalanır. Komissiyanın sədri sonuncu səs verir.

## 5. Test imtahanlarının keçirilməsi

5.1. Müsabiqəyə buraxılmaq üçün rəy almış namizədlərə test imtahanı keçirilir.
5.2. Namizədlərə test imtahanının yeri və vaxtı barədə 2 gün əvvəl məlumat verilir.
5.3. Test imtahanı namizədin aşağıdakı bilik bazasını yoxlayır:
5.2.1. Məntiqi təfəkkürü yoxlayan test (yazılı);
5.2.2. İxtisas istiqaməti üzrə baza bilikləri yoxlayan test (yazılı);
5.2.3. Kompüter bilikləri yoxlayan test (yazılı);
5.2.4. Dil bilikləri yoxlayan test (yazılı);
5.3. Test imtahanı üzrə sualların 60%-indən çoxuna düzgün cavab verən namizədlər testdən müvəffəqiyyətlə çıxmış hesab edilir.
5.4. Test imtahanın nəticəsi səsverməyə qoyulmur.

## 6. Müsahibənin keçirilməsi

6.1. Test imtahanından müvəffəqiyətlə çıxmış namizəd müsahibəyə vəsiqə alır.
6.2. Müsahibənin keçirildiyi vaxt və yer barədə namizədə kadr şöbəsi tərəfindən ən azı 2 gün əvvəl məlumat verilir.
6.3. Müsahibəyə başlayarkən komissiyanın rəhbəri namizədlərin siyahısını elan edir və komissiyanın üzvlərindən etirazları olub olmamasını soruşur. Namizədlə yaxın qohumluq va ya şəxsi münasibətdə olan komissiyanın üzvü həmin namizədlə söhbətdə iştirak etmir. Etirazın qəbul və ya rədd edilməsini komissiyanın sədri müəyyən edir.
6.4. Hər bir namizədlə müsahibə fərdi qaydada aparılır.
6.5. Müsahibə zamanı komissiya üzvləri müsahibəyə kənardan mütəxəssis dəvət edə bilər. Mütəxəssisin dəvət olunması səsverməyə qoyulur və qərar sadə səs çoxluğu ilə qəbul edilir.
6.6. Hər bir namizədlə müsahibənin nəticəsi səsverməyə qoyulur və qərar sadə səs çoxluğu ilə qəbul edilir.

## 7. Müsabiqənin yekunlaşdırılması

7.1. Müsabiqədən müvəffəqiyətlə çıxmış şəxs müsabiqə komissiyasının sədri tərəfindən İdarə Heyətinin sədrinə təqdim edilir. İdarə Heyətinin sədri ona təqdim edilmiş namizədlər sırasından müvafiq vakant ştat vahidlərinə təyinat aparır.
7.2. Müsabiqədən müvəffəqiyətlə keçən namizədlərin sayı Bankın boş olan ştat vahidlərinin sayından artıq olduqda , işə qəbul edilməsi üçün əmri verilməyən namizədlər Bankın kadr ehtiyatına daxil edilir və müvafiq ştat üzrə boş yer yarandıqca müvafiq vəzifələrə təyin edilirlər.